**Audit**

Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

**Məcburi auditin həyata keçirilməsi mexanizmi təkmilləşir**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2012-ci il tarixli qərarına əsasən «Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi, hesabat dövrləri və dərc edilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli qərarına dəyişikliklər edilmişdir.

Qərarda əsas diqqəti çəkən məqam 3.4-cü və 3.5-ci maddənin, həmçinin 5-ci hissənin mətninin tam yeni redaksiyada verilməsidir. Qərarın 3.4-cü maddəsinə görə, kommersiya təşkilatının (kredit təşkilatları və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi barədə məlumatlar onların tabe olduqları yuxarı təşkilat və ya təsisçi (təsisçilər) tərəfindən bu hesabatların sonuncu təqdimetmə günündən sonra 10 gün ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə verilir. Göründüyü kimi, qərarın bu maddəsi üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə hər hansı maliyyə hesabatlarının təqdim edilməsi nəzərdə tutulmayıb, bu maddəyə görə kommersiya təşkilatının tabe olduqları yuxarı təşkilatına və ya təsisçisinə (təsisçilərinə) illik maliyyə hesabatlarının təqdim edilməsi barədə məlumatların verilməsi tələbi qoyulub. Kommersiya təşkilatları illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hesabat dövrü başa çatdıqdan sonra, müvafiq olaraq sonrakı ilin aprel ayının 30-dan və iyun ayının 30-dan gec olmayaraq tabe olduğu yuxarı təşkilata və ya təsisçiyə (təsisçilərə) təqdim etməlidirlər.

Lakin qərarın 3.5-ci maddəsindən aydın olur ki, kommersiya təşkilatları illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını Maliyyə Nazirliyinə o halda təqdim edirlər ki, onlar dövlət zəmanəti ilə kredit almış olsun və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak etmiş olsun, həmçinin onlara büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılmış olsun. Göstərilən istiqamətlərdən vəsaitlər əldə edən kommersiya təşkilatları maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda və qaydada auditor rəyi ilə birlikdə Maliyyə Nazirliyinə təqdim edirlər.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 247.3-cü «məcburi auditdən yayınma» maddəsinə əsasən «Qanunla nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə - vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək miqdarda, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə edilir». Əldə edilmiş məlumatlara görə, Azərbaycanda hər il auditdən məcburi qaydada keçməli olan kommersiya təşkilatlarının yalnız 10-15 faizi audit yoxlamasından keçir. Məcburi auditdən yayınan böyük əksəriyyət hesab edilən kommersiya təşkilatlarının aşkar edilərək müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin görülməsi çox vacib məsələ olaraq qalırdı. Qərarın 5-ci hissəsinin mətninə edilmiş dəyişiklə bu məsələ müəyyən qədər öz həllini tapmışdır. Qərarın 5.2-ci maddəsinə görə maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə dərc etməli olan kommersiya təşkilatlarının siyahısını Azərbaycan Respublikasının Vergilər Nazirliyi ildə bir dəfə mart ayının 31-dək Maliyyə Nazirliyinə təqdim edir. Vergi orqanı kommersiya təşkilatlarını onları dövlət qeydiyyatına alan və onların üzərində yoxlama və nəzarət funksiyasını yerinə yetirən dövlət orqanı olduğuna görə, kommersiya təşkilatları haqqında bütün maliyyə və qeydiyyat məlumatlarına malikdir. Lakin Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən Maliyyə Nazirliyinə təqdim olunmalı siyahıda maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə dərc etməli olan kommersiya təşkilatları göstəriləcək. Dolayısı ilə belə aydın olur ki, maliyyə hesabatlarının dərc etdirilməsi tələbi qoyulmayan, lakin məcburi auditdən keçməli olan kommersiya təşkilatları bu siyahıya aid edilməməlidir.

Qərarın 5-ci hissəsindən aydın olur ki, maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə dərc etməli olan kommersiya təşkilatları aşağıdakılardır:

- ictimai əhəmiyyətli qurumlar;
- birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabat-larını hazırlayanlar;
- dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edənlər;
- büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılanlar.

Lakin unutmaq olmaz ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 99.2-ci və 100.3-cü maddəsində göstərilir ki, açıq səhmdar cəmiyyəti illik hesabatını və mühasibat balansını, qapalı səhmdar cəmiyyəti isə bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədləri (maliyyə hesabatlarını) hamının tanış olması üçün dərc etməyə borcludur. Həmçinin Məcəllənin 107.6-cı maddəsində göstərilir ki, illik maliyyə hesabatlarının dərci zamanı səhmdar cəmiyyəti illik maliyyə hesabatının yoxlanılması üçün peşəkar auditoru cəlb etməyə borcludur. Deməli, səhmdar cəmiyyətlərinin də bu siyahıya aid edilməsi nəzərdə tutula bilər.